***"Təsdiq edilmişdir"***

*"AllAll Finance" MMC-nin Direktoru tərəfindən*

*21 avqust 2025-ci il tarixdə təsdiq edilmişdir.*

........................................

*Direktor: F. Əsgərli*

# MƏXFİLİK SİYASƏTİ

*Reyestr № İT0101*
*Nəşr № 01*

# MÜNDƏRİCAT

1. Ümumi müddəalar....................3
2. Əsas anlayışlar....................3
3. Şəxsi məlumatların kateqoriyaları və təqdim edilməsi....................3
4. Şəxsi məlumatların mənbələri....................4
5. Şəxsi məlumatların emalının məqsədi....................4
6. Şəxsi məlumatların emalı üçün hüquqi əsaslar....................5
7. Şəxsi məlumatların ötürülməsi....................5
8. Şəxsi məlumatların qorunması....................6
9. İstifadəçinin razılığı....................7
10. Yekun müddəalar....................7

## 1. Ümumi müddəalar

1.1 "AllAll Finance" MMC-də Məxfilik Siyasətinin (bundan sonra: "Siyasət") məqsədi İstifadəçini şəxsi məlumatların MMC tərəfindən emalı ilə bağlı müvafiq məlumatlarla təmin etmək məqsədilə hazırlanmışdır. Siyasət MMC İstifadəçinin şəxsi məlumatlarını emal etdiyi bütün hallarda (məsələn, İstifadəçi xidmətlər üçün müraciət etdikdə, xidmətlərdən istifadə etdikdə, sayta daxil olduqda, MMC ilə əlaqə saxladıqda, saytda qeydiyyatdan keçdikdə və s.) tətbiq edilir.

1.2 Bu Siyasət MMC – nin bütün əməkdaşları və müştərilərinə şamil olunur.

## 2. Əsas anlayışlar

2.1. "AllAll Finance" Məhdud Məsuliyyətli Cəmiyyəti. VÖEN: 1806806881, Hüquqi ünvan: Bakı şəhəri, Sabunçu rayonu, Bağlar (Albalılıq qəsəbəsi), ev 465 K.

2.2. **Şəxsi məlumatlar** - birbaşa və ya dolayısı ilə bir şəxsi müəyyən etməyə imkan verən hər hansı məlumat.

2.3. **Siyasət** – Məxfilik Siyasəti.

2.4. **İstifadəçi –** MMC-nin fərdi məlumatları topladığı və sonrakı emal etdiyi fiziki şəxsdir.

2.5. **Sayt** – MMC-nin internet saytı.

2.6. **Xidmət** – MMC tərəfindən göstərilən bütün xidmətlər.

## 3. Şəxsi məlumatların kateqoriyaları və təqdim edilməsi

3.1. MMC fərdi məlumatların aşağıdakı kateqoriyalarını toplaya və emal edə bilər:

a) Əsas məlumatlar (məsələn, ad, soyad, şəxsi kod, doğum tarixi, yaş, cins və s.);
b) Əlaqə məlumatları (məsələn, telefon nömrəsi, e-poçt ünvanı, yaşayış ünvanı və s.) (MMC ilə bütün telefon danışıqları qeydə alınır);
c) Maliyyə və məşğulluq məlumatları (məsələn, gəlirlər, xərclər, aylıq ödənişlər, öhdəliklər və borclar haqqında məlumat, məşğulluq növü və iş yeri haqqında məlumat, kredit tarixçəsi və s.);
d) İstifadəçinin müəyyən edilməsi və sonrakı tədqiqi üçün zəruri olan məlumatlar (məsələn, İstifadəçinin (onun qohumları və ya yaxın tanışları) siyasi önəmli şəxs olub-olmaması, benefisiar sahibi haqqında məlumat və s.);
e) Ödənişlər və köçürmələrlə bağlı məlumat (məsələn, bank hesabı məlumatı, vəsaitin ödəyicisini müəyyən edən məlumat və s.);
f) İstifadəçinin cihazı ilə bağlı məlumatlar (məsələn, cihaz ID, cihaz modeli, əməliyyat sisteminin versiyası, cookie ID və s.);
g) Yerləşmə;
h) Şəbəkə məlumatları (mənbə IP ünvanı);
i) İstifadəçinin sosial şəbəkələrdə olması haqqında məlumat;
j) İstifadəçi tərəfindən MMC-yə verilən və ya MMC tərəfindən digər mənbələrdən alınan digər şəxsi məlumatlar.

3.2. Fərdi məlumatları MMC-yə ötürməklə İstifadəçi və ya fərdi məlumatların digər subyekti bu Siyasətdə müəyyən edilmiş qaydada onların emalına razılığını bildirir. (Fərdi məlumatların 3-cü şəxslərlə bağlanmış müqavilələr əsasında MMC-yə ötürüldüyü hallar istisna olmaqla.)

## 4. Şəxsi məlumatların mənbələri

4.1. MMC şəxsi məlumatları ümumilikdə iki yolla əldə edir:

4.1.1. Birbaşa İstifadəçidən, məsələn, İstifadəçi:

a) Xidmətlərdən istifadə edir və ya istifadəsi üçün müraciət edir;
b) MMC ilə əlaqə saxlayır (məsələn, e-poçt, telefon, adi poçt və ya digər rabitə kanalı);
c) Sayta daxil olur;
d) başqa şəkildə MMC-yə şəxsi məlumat təqdim edir.

4.1.2. Əsasən aşağıdakıları əhatə edən üçüncü mənbələrdən:

a) Kredit İnformasiya Büroları (məsələn, "Azərbaycan Kredit Bürosu" MMC (AKB) və s.);
b) 3-cü şəxslərlə bağlanmış müqavilələr əsasında əldə olunmuş məlumatlar;
c) Borc toplama xidməti təminatçıları tərəfindən saxlanılan məlumat bazaları;
d) Fırıldaqçılıq, çirkli pulların yuyulması, terrorçuluğun maliyyələşdirilməsi və yayılması ilə mübarizə üçün xidmət təminatçıları tərəfindən hazırlanmış sistemlər;
e) Dövlət İnformasiya Sistemləri/Dövlət Qurumları (məsələn, "ASAN" Xidmət, vergi orqanları, sosial sığorta orqanları tərəfindən aparılan məlumat bazaları və s.);
f) Saytda mövcud olan Uzaqdan İdentifikasiya Texnologiyası Həlli (əgər varsa);
g) Cookie fayllar və oxşar texnologiyalar.

4.2. Şəxsi məlumatlar həm xidmətlərin göstərilməsinə başlamazdan əvvəl, həm də xidmətlərin göstərilməsi zamanı 4.1-ci bənddə göstərilən mənbələrdən əldə edilə bilər.

## 5. Şəxsi məlumatların emalının məqsədi

5.1. MMC fərdi məlumatları aşağıdakı məqsədlər üçün emal edir:

a) Xidmətlərin göstərilməsi üçün müqavilənin bağlanması və icrası;
b) İstifadəçi hesabının yaradılması;
c) İstifadəçi ilə əlaqə və kommunikasiya (məsələn, xidmətlərin göstərilməsi üçün müqavilənin bağlanması və icrası ilə əlaqədar);
d) İstifadəçinin kredit qabiliyyətinin (krediti ödəmə qabiliyyətinin) qiymətləndirilməsi və müəyyən edilməsi;
e) Risklərin idarə edilməsi (kredit riski daxil olmaqla);
f) Dələduzluğun, çirkli pulların yuyulmasının, terrorçuluğun maliyyələşdirilməsinin və yayılmasının qarşısının alınması və aşkar edilməsi; arzuolunmaz müştərilərin siyahısının tərtibatı, xidmətlərdən sui-istifadənin qarşısının alınması);
g) MMC-nin hüquqlarının məhkəmə və məhkəmədənkənar müdafiəsi; Borcların alınması (o cümlədən məhkəmədənkənar) və yığım tədbirlərinin həyata keçirilməsi, iddiaların təyin edilməsi;
h) İstifadəçilərin və digər məlumat subyektlərinin müraciət və şikayətlərinə baxılması, şikayətlərin reyestrinin yaradılması;
i) Birbaşa marketinq məqsədləri üçün, məsələn: (i) kommersiya kommunikasiyalarının (məsələn, e-poçt ünvanına və/və ya telefon nömrəsinə xidmətlər, xüsusi təkliflər və s.

haqqında ən son məlumatların) göndərilməsi, zənglərin edilməsi, sosial şəbəkələr, eləcə də digər rabitə kanalları vasitəsilə İstifadəçilərlə ünsiyyət); (ii) müştəri loyallığı tədbirlərinin təşkili (lotereyaların keçirilməsi daxil olmaqla); (iii) targetləşmə, cookie fayllar və oxşar texnologiyalardan istifadə; (iv) Müştəri qruplarının qiymətləndirilməsi və tədqiqi;

j) Potensial müştərilərlə əlaqə saxlamaq və/və ya digər məlumat/kommunikasiya kanalları (o cümlədən, lakin bununla məhdudlaşmayaraq, sosial media, poçt, internet, axtarış saytları, bloqlar, müqayisə saytları və s.) vasitəsilə xidmətlər təklif etmək;

k) Təhlükəsizliyin təmin edilməsi (məlumat və kibertəhlükəsizlik daxil olmaqla), əmlakın qorunması, hüquq pozuntularının qarşısının alınması və aşkar edilməsi;

l) Zəng məzmununun keyfiyyətinə nəzarət, xidmət keyfiyyətinə nəzarət, sübutların qorunması (təqdim olunan məlumatların düzgünlüyü, işçinin səlahiyyətləri və s.);

m) Normativ hüquqi aktlarda müəyyən edilmiş öhdəliklərin yerinə yetirilməsi, səlahiyyətli dövlət orqanlarının sorğularına cavabların verilməsi;

n) Təqdim olunan məlumatlar əsasında statistik və digər tədqiqatların aparılması;

o) İstifadəçilər və müştərilər məlumat bazasının yaradılması, istifadəçi hesablarını idarə etmək və digər inzibati məqsədlər;

p) Azərbaycan Respublikasının qanunvericiliyi və MMC-nin daxili sənədləri ilə müəyyən edilmiş (müəyyən edilə bilər) digər məqsədlər üçün.

5.2. Şəxsi məlumatlar yalnız məlumatların toplandığı məqsədlərə, eləcə də digər icazə verilən əlaqəli məqsədlərə nail olmaq üçün zəruri olan, lakin qüvvədə olan qanun və qaydalarla nəzərdə tutulmuş müddətdən artıq olmayan müddət ərzində saxlanılacaqdır. Şəxsi məlumatların toplanması və emalı məqsədinə çatdıqda və onların saxlanmasına ehtiyac aradan qaldırıldıqda, bu məlumatlar bərpa olunmadan ləğv ediləcəkdir.

## 6. Şəxsi məlumatların emalı üçün hüquqi əsaslar

6.1. MMC fərdi məlumatları aşağıdakı şərtlərdən biri və ya bir neçəsi əsasında emal edir:

a) İstifadəçinin razılığını aldıqdan sonra və ya bu məlumat ictimaiyyətə açıq olduqda; (Bu Siyasətin 3.2-ci maddəsində qeyd olunan istisna nəzərə alınmaqla)

b) İstifadəçi ilə bağlanmış müqaviləyə uyğun olaraq öhdəliklərin yerinə yetirilməsi zəruri olduqda;

c) Fərdi məlumatların emalı emal məqsədlərini və üsullarını müəyyən edən qanunvericiliyə əsaslandıqda;

d) Şəxsi məlumatların emalı MMC-nin və ya üçüncü tərəfin qanuni maraqlarını təmin etmək və/və ya qorumaq üçün zəruri olarsa.

## 7. Şəxsi məlumatların ötürülməsi

7.1. Fərdi məlumatlar aşağıdakı alıcı kateqoriyalarına ötürülə bilər:

a) MMC-nin işçiləri və vəzifəli işçiləri;

b) MMC-nin xidmət təminatçıları (məsələn, məlumatların saxlanması, informasiya və kommunikasiya texnologiyalarının təmin edilməsi, borcların alınması və s. kimi xidmətlərin təminatçıları);

c) səlahiyyətli dövlət orqanları və dövlət məmurları;

d) kredit məlumatının emalı (məsələn, kredit büroları) və/və ya borcların yığılması sahəsində çalışan alıcılar;
e) Şəxsi məlumatları almaq hüququ olan digər alıcılar.

7.2. Əsasən, MMC fərdi məlumatları Azərbaycan Respublikası daxilində emal edir. Bununla belə, emal zamanı (məsələn, MMC müəyyən xidmətlərdən istifadə etdikdə) şəxsi məlumatlar ondan kənarda olan alıcıya ötürülə bilər. Bu halda MMC fərdi məlumatların Azərbaycan Respublikasının hüdudlarından kənara ötürülməsinə dair hüquqi normaların tələblərinə əməl olunmasını təmin edir.

7.3. MMC şəxsi məlumatların təhlükəsizliyini təmin etmək üçün (məsələn, onların məxfiliyini, bütövlüyünü və əlçatanlığını təmin etmək üçün) lazımi və kifayət qədər təşkilati və texniki tədbirlər görür. Bu cür tədbirlərə, məsələn, yalnız səlahiyyətli şəxslərə fərdi məlumatları emal etməyə imkan verən firewallların istifadəsi, şəxsi məlumatların ehtiyat nüsxəsinin çıxarılması, şəxsi məlumatların mühafizəsi sahəsində kadrların hazırlanması, vəzifələrin ayrılması və digər oxşar təhlükəsizlik tədbirləri daxil ola bilər.

## 8. Şəxsi məlumatların qorunması

8.1. Mövcud qanunvericiliyə uyğun olaraq İstifadəçi aşağıdakı hüquqlara malikdir:
a) informasiya sistemində özü haqqında şəxsi məlumatların mövcudluğu, MMC haqqında məlumat əldə etmək;
b) informasiya sistemində özü haqqında şəxsi məlumatların toplanması, emalı və üçüncü şəxslərə ötürülməsi üçün hüquqi əsaslandırma tələb etmək, belə şəxsi məlumatların toplanması, işlənməsi və digər şəxslərə ötürülməsi nəticəsində yarana biləcək hüquqi nəticələr haqqında məlumat əldə etmək;
c) informasiya sistemində özü haqqında toplanmış fərdi məlumatların məzmunu ilə tanış olmaq;
d) İnformasiya sistemində İstifadəçinin şəxsi məlumatlarının toplanması və emalının məqsədini, emal şərtlərini, üsullarını, İstifadəçinin şəxsi məlumatları, o cümlədən məlumat mübadiləsini təmin edən informasiya sistemləri ilə tanış olmaq səlahiyyətinə malik olan şəxslərin dairəsini bilmək;
e) qanunla başqa hal nəzərdə tutulmayıbsa, informasiya sistemində toplanmış və emal edilmiş fərdi məlumatların dəqiqləşdirilməsini və ləğv edilməsini tələb etmək, habelə bu cür məlumatların müəyyən edilmiş qaydada arxivə verilməsini tələb etmək;
f) informasiya sistemində toplanmış və emal edilmiş fərdi məlumatların mənbələri haqqında məlumat almaq, bu məlumatın qanuniliyinin təsdiqini tələb etmək;
g) informasiya sistemində toplanmış və emal edilmiş fərdi məlumatların qorunmasını tələb etmək;
h) Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

8.2. İstifadəçi nəzərə almalıdır ki, yuxarıda göstərilən hüquqlar mütləq deyil və normativ hüquqi aktlarda bu hüquqlara məhdudiyyətlər və istisnalar nəzərdə tutula bilər.

8.3. İstifadəçi Siyasətin bu bəndində nəzərdə tutulmuş hüquqlarını MMC-yə yazılı ərizə və şəxsiyyəti təsdiq edən sənədi kağız daşıyıcıda təqdim etməklə və ya gücləndirilmiş elektron imza ilə elektron sorğu təqdim etməklə həyata keçirir.

8.4. Yuxarıda göstərilən hüquqların həyata keçirilməsi üçün müraciət edən fiziki şəxsin şəxsiyyəti ilə bağlı əsaslı şübhələr yaranarsa, MMC onun şəxsiyyətini təsdiqləmək üçün zəruri olan əlavə məlumatların verilməsini tələb edə bilər.

### 9. İstifadəçinin razılığı

9.1. İstifadəçi, xidmətlərin göstərilməsi üçün müraciət edərkən Siyasətlə tanış olduğunu və razılığını təsdiq edərək bu Siyasət və Azərbaycan Respublikasının mövcud qanunvericiliyi ilə müəyyən edilmiş qaydada şəxsi məlumatlarının toplanmasına və sonrakı emalı üçün razılıq və icazə verir. (Bu Siyasətin 3.2-ci maddəsində qeyd olunan istisna nəzərə alınmaqla.)

9.2. İstifadəçi bu Siyasətin şərtləri ilə razılaşmadıqda, saytdan və MMC-nin xidmətlərindən istifadə etməkdən çəkinməlidir.

9.3. Razılıq, normativ hüquqi aktlarda başqa hal nəzərdə tutulmayıbsa, bu Siyasətdə müəyyən edilmiş qaydada geri çağırılana qədər qüvvədədir və etibarlıdır.

### 10. Yekun müddəalar

10.1. Bu Siyasət təsdiqləndiyi tarixdən qüvvəyə minir.

10.2. MMC bu Siyasətdə birtərəfli qaydada dəyişiklik etmək hüququna malikdir. Bu Siyasətin yeni versiyası saytda yerləşdirildiyi andan (Siyasətin yeni versiyasında başqa hal nəzərdə tutulmayıbsa) qüvvəyə minir. İstifadəçi hər dəfə sayta daxil olduqda, həmçinin Siyasətin 1.1-ci bəndində göstərilən digər hallarda Siyasətdə edilən dəyişiklikləri müstəqil şəkildə izləməyə borcludur.

10.3. MMC istənilən mübahisəni danışıqlar yolu ilə həll etməyi üstün tutur. İstifadəçi və ya fərdi məlumatların digər subyekti emalın normativ hüquqi aktlara uyğun olmadığını düşündüyü halda, ilk növbədə MMC ilə əlaqə saxlaya və bu Siyasətin 8.3-cü bəndində qeyd edildiyi qaydada öz şikayətini təqdim edə bilər.